

**Nemət Bəxtiyar (İsbəndiyarov) Azərbaycan Jurnalistlər Birliyinin üzvü**

# XORUZ

**Yumoristik hekayə**

Bir dəfə Vəli kişi hiss etdi ki, xoruz -beçələr çoxluq təşkil edirlər, bir-birinə göz verib, işıq vermir, bir-birilərini döyüb dimdikləyərək al qana boyayırlar. Toyuq-cücənin sayını azaltmağa başladı Vəli kişi. Dost-tanış, gələn-gedən çox razı qalmışdı və xoruz -beçələr qonaqların qarşısında kişinin üzünü ağ eləmişdir.

Toyuq-cücələrin icində bir Qızıl Xoruz vardı. Ona dəymək nyyəti yox idi düşünürdü ki, axıra gədər qalsa həm toyuqlardan, fərələrdən müğayat olar, həm də hər səhər tezdən banlayıb hamını yuxudan oyadar...

Vəli kişi tezdən yuxudan duran kimi, hinə baş çəkər, toyuqları yemləyərdi, hinin qapısını açar-açmaz Qızıl Xoruz kişini qarşılayardı, qışqırardı hay salardı, hələ az qalırdı ki, kişinin üstünə atılsın, O da dənlərini verəndən sonra onların dənləmələrinə tamaşa edərdi. Yeyib-doyandan sonra Qızıl Xoruz qənəd açıb ucadan banlayar, toyuqcücələrin içində var-gəl edərdi. Sanki özünü öyərdi:

- Mən Qızıl Xoruz elə vuran-yıxanam ki, heç bir xoruz qarşımda tab gətirə bilməz. Elə qoçaqlığıma görədə sahibim həyət-bacanı mənə tapşırıbdı ki, sizdən müğayat olum...

Elə bu vaxt göydən bir qarğa şığadı ki, toyuqlara tökülən yemdən o da yesin. Bütün toyuq-cücə bir-birlərinə qarışdı, özlərini gizlətməyə yer axtardılar. Qızıl Xoruz o birilərindən tez, ayaqlarının altında toyuq-cücələrini əzə-əzə bir deşik tapıb özünü ora təpdi...

Aradan bir az keçdi, xəta salamatlıqla sovuşdu, Qızıl Xoruz gizləndiyi yerdə özünə gəldi, istədi başını qaldırsın, ancaq dar yer olduğu üçün başı daşa dəyib ağrıdı. Toyuq-cücənin səsinə istədi gözünü açsın, amma qaranlıq idi. Ta bədəni sağ-salamat olduğunu hiss edəndən sonra, arxa-arxa gizləndiyi yerdən çıxdı, silkələnib üst-başının toz-torpağını çırpdı, və ürəkdən qanadlarını çırparaq banladı...

Toyuq-cücələr elə bil heç bir iş olmamış kimi yenə də öz işləri ilə məşğul olmağa başladıla Qızıl Xoruz ayaqlarının altındakı dəni görən kimi, adəti üzrə yenə tez dəni dimdiyinə vurdu tez də yerə atdı, bütün toyuq-cücəni səslədi. Bir dəndən ötəri toyuqcücələrin hamısı gəlmişdilər, hər biri istəyirdilər ki, xoruzun tapdığı dəni o yesin, ona görə onu dövrəyə aldılar...

Qızıl Xoruz isə dəni bir neçə dəfə yerə atıb dimdiyinə aldı, istəyirdi ki, dəni ürəyinə yatan, ancaq sarı fərə yesin, elə onun qarşısında yerə atdı. Yerə düşən kimi sarı fərə forslandı, naz eləyərək dəni bir dəfəyə uddu. O biri toyuqların, fərələrin xətiri xoş olsun deyə dimdiyini yalandan taqqıldatdı, gülümsəyərək:

- Küsməyin əzizlərim bir də dən tapsam sizə verəcəyəm. -dedi.

Bayaqdan Qızıl Xoruzun hərəkətlərini izləyən çil-çil beçə dilləndi:

- Bir az bundan qabaq, döşünə döyüb meydan sulayan sən deyildin? Deyirdin ki, mən heç nədən qorxmuram, bəs qarğa dən yeməyə gələndə, elə bildin ki, bizə Qızıl quş hücum çəkibdir, bizi qoyub hamıdan qabaq özün gizləndin...

Qızıl Xoruz dərindən köksünü ötürüb dedi:

- Düz deyirsən abala, bu dərd heç deyiləsi dərd deyil, O səs-küy, qorxu bir quşun pır-pır eləməsi, mənim gözümü lap cücə vaxtından alıb, ona görə həmişə onu görəndə, o səsi eşidəndə özümü itirirəm. ...

Bir il olardı ki, Qızıl Xoruz hörmətdən və gücdən düşmüşdü, toyuqların, beçə-fərələrin arxasınca qaçırdı, qaçırdı, çata bilmirdi, ta toyuqlar da onun sözünə baxmırdılar dən tapsa da, cağırsa da gələn yox idi. Əlini hər şeydən üzmüşdü. Bir gün ürəkləndi qonşunun hasarına atlandı, qonub bərkdən banladı. Qonşunun həyətində toyuq-cücənin içinə vəl-vələ düşdü, hərə bir tərəfə qaçdılar. Bu həyətdə də Sarı Xoruz meydan sulayırdı, sahiblik edirdi.

Qızıl Xoruzla Sarı Xoruz arasında ölümdirim mübarizəsi başladı. Sarı Xoruz da az aşın duzu deyildi, bir də ki, qonşu həyətin xoruzu çəpərə qonsun, banlasın, meydan sulasın bunu heç bir xoruz götürməzdi...

Sarı Xoruz bir, iki həmlədə Qızıl Xoruzu al qana boyadı, yerə yıxıb başını, gözünü, dimdikdən keçirdi.

Bu səs-küyə ev sahibi Əli dayı özünü hadisə yerinə çatdırdı. Sarı Xoruza tərəf əli ilə kiş-kiş dedi, o isə əl çəkmək istəmirdi.

Ev sahibi Qızıl Xoruzu Sarı Xoruzun əlindən güclə aldı, Sarı Xoruzun igidliyinə əhsən dedi, birdə fikirləşdi ki, başqasının xoruzu nə üçün onun çəpərinə qonub banlamalıdır. Döyüşdə məğlub olan Qızıl Xoruzu tanıdı, bildi ki, qonşunun həyətindəki xoruzdu, birdəki qonşu Vəli kişi ilə xətir-hörməti vardı, bir xoruza görə münasibəti korlamayacaqdır ki, ...

Qızıl Xoruzun ayaqlarından tutub qonşunu səslədi. Səsə hay verən qonşu Vəli kişi işi başa düşdü ki, Qızıl Xoruz səhv edib

- Ay qonşu, xoruzun elə yaxşı eləyibdi, onu bu günə salıbdı, dinc duraydı, əməlinə görə layiqli cavab alıbdır, at çəpərdən bu tərəfə, yer qazım basdırım,başı batsın onun- deyə qonşu səsləndi.

O biri qonşunun səsi eşidildi: - Ay qonşu, hələ ölməyibdir, başını, o sözdə, iki-üç kilo əti var, ver arvad bişirsin, uşaqlar bir övnə yeyərlər - dedi.

Xeyli vaxt keçmişdi, səhər-səhər tezdən xoruz banı eşidilmirdi, sakitlik hökm sürürdü. Vəli kişi bazara yollandı, Ağ rəngli bir xoruz alıb evə gətirdi, onu toyuq-cücənin içinə buraxdı.

Toyuq-cücələr təzə qonağın başına toplaşdılar, Çil toyuq irəli yeridi və ona bir-iki dimdik atdı. Ağrıdan Ağ Xoruz qaçıb canını güclə qurtardı.

Vəli kişi axşam toyuq-cücəni nəzərdən keçirdi, Ağ Xoruz yox idi. Ağ Xoruzu ağacdan endirdi, hinə qatdı, fikirləşdi ki, yəqin Xoruz təzədi öyrəşər Vəli kişini səslədi, onu məzəmmət etməyə başladı.

Bir gün Vəli kişinin həyat yoldaşı Səkinə arvad

-A kişi, bazardan alıb gətirdiyin Ağ Xoruz gələndən gündə yumurtlayan toyuqlar iki gündən bir yumurtlayırlar. O boyda bazarı qurutdun. Gedib bir fərsiz xoruz alıb gətirmisən, nə toyuğa baxır, nə də ki...

Bəlkə bu Ağ Xoruz inkubatordan çıxmış cücədir, əlindən gəlmir. Get bazardan yerli "Xoruz" al gətir ...

Ədalət.- 2016.- 14 iyul.- S. 4.